# İti qələmilə maarifçiliyin və milli kimliyin keşiyində

**Azərbaycan milli mətbuatının yaranmasından 150 il ötür. 1875-ci il iyulun 22-də böyük maarifçi, ictimai xadim Həsən bəy Zərdabi tərəfindən nəşr olunan "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız zəngin inkişaf yolu keçmişdir. O dövr üçün cəsarətli addım olan "Əkinçi" yalnız bir qəzet deyil, həm də xalqın maariflənməsinə, milli özünüdərkin formalaşmasına xidmət edən məktəb idi. Milli oyanışın yeni dövrünün müjdəçisi olan "Əkinçi" qəzeti bir çox mətbu və ədəbi məktəbin formalaşmasına zəmin yaratdı, xalqın maariflənməsi və milli-azadlıq hərəkatının yüksəlişində mühüm amilə çevrildi. Azərbaycan mətbuatı isə müxtəlif ictimai-siyasi mərhələlər boyunca xalqa, cəmiyyətə və insana xidmət missiyasını layiqincə yerinə yetirdi. Mütərəqqi düşüncələrin təbliğatçısı olan "Əkinçi" qəzeti elm, maarif, mədəniyyət, həmçinin ədəbiyyat və incəsənətin inkişafına dair məqalələr dərc edir, yeni tipli məktəblərin yaradılmasının vacibliyini vurğulayırdı. Onun ən mühüm üstünlüklərindən biri sadə, anlaşıqlı və xalq danışıq üslubuna yaxın mətbu dili idi. Maarifçilik ideyalarını önə çəkən qəzet qadınların azadlığı və təhsili məsələsinə xüsusi diqqət ayırırdı. "Əkinçi"də Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhəmmədtağı Əlizadə Şirvani, Heydəri kimi ziyalıların məktubları, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin "Vəkili-naməlumi millət" imzası ilə yazıları işıq üzü görürdü. Qəzet dini fanatizmə, xurafata və cəhalətə qarşı sərt mövqe sərgiləyir, maarifçilik ideyalarını yayırdı. "Əkinçi" yalnız Azərbaycanda deyil, həm də Gürcüstan, Dağıstan, Özbəkistan və digər bölgələrdə oxunurdu.**

Ayda cəmi iki dəfə, 300-400 nüsxə ilə çap olunan bu kiçik qəzetin ömrü uzun olmadı. 1877-ci ilin 29 sentyabrına qədər davam etdi. Amma onun yaratdığı böyük ideyalar çar hökumətini ciddi narahat etdi. Xalqı maarifləndirən, ictimai-siyasi düşüncəni oyadan "Əkinçi"nin səsi boğuldu, cəmi 56 nömrədən sonra qəzet bağlandı. Lakin "Əkinçi"nin ideyaları boğulmadı, milli mətbuatımızın yolunu işıqlandıran məşələ çevrildi. Bir müddət Azərbaycan dilində yeni qəzet çıxmasa da, "Əkinçi"nin qoyduğu bu bünövrə sonrakı mətbuat irsinin əsas yol göstəricisi oldu. Azərbaycan mətbuatının keçdiyi yol, əslində, xalqımızın milli oyanış tarixidir. XIX əsrin sonu - XX əsrin əvvəllərində nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "İrşad", "Molla Nəsrəddin" kimi mətbu orqanlar ictimai fikir tariximizdə yeni dövr açdı. Xüsusilə, Cəlil Məmmədquluzadənin rəhbərlik etdiyi "Molla Nəsrəddin" satirası ilə cəhalətə, nadanlığa, geriliyə qarşı mübarizə apararaq maarifçilik hərəkatına güclü təkan verdi.

Sovet dövründə Azərbaycanda, digər sovet respublikalarında olduğu kimi, mətbuat tamamilə sovet ideologiyasının təbliğat vasitəsinə çevrilmişdi. Azad və müstəqil mətbuat anlayışı mövcud deyildi; qəzet və jurnallar yalnız bolşevik rejimini və kommunist ideyalarını təbliğ etməklə məşğul olurdu. Senzura hər şeyi nəzarətdə saxlayırdı. Kommunist Partiyasının əsas orqanı sayılan "Pravda" ("Həqiqət") qəzetinin ilk nömrəsinin çapdan çıxdığı 5 may isə Mətbuat Günü kimi qeyd edilirdi. Müstəqillik illərində isə mətbuat azadlığı yeni imkanlar açdı, jurnalistika müasir texnologiyalarla zənginləşdi, medianın yüksəlişi baş verdi. 5 iyul 1991-ci il tarixli fərmanla "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycanda hər il Milli Mətbuat Günü kimi qeyd olunur. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ölkənin bütün sahələrində olduğu kimi, mətbuatın inkişafında da mühüm dönüş nöqtəsi oldu. Ölkədə ictimai-siyasi sabitliyin bərpası, vətəndaşların təhlükəsizliyinin təmin olunması və sosial-iqtisadi problemlərin həlli söz və fikir azadlığının qorunmasına geniş imkan yaratdı. Mətbuat orqanlarının sərbəst fəaliyyətinə şərait yaradılması, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində atılan addımlar isə Azərbaycanda fikir plüralizminin inkişafına güclü təkan verdi. Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış Konstitusiyada da mətbuatın rolu xüsusi vurğulanıb. Sənəddə qeyd olunur ki, demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir.

1998-ci ildə imzalanmış "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişafında mühüm mərhələ hesab olunur. Bu Fərman kütləvi informasiya vasitələrinin azad və müstəqil fəaliyyətinə geniş imkan yaratdı, onları cəmiyyətin demokratikləşməsinə təsir göstərən güclü bir vasitəyə çevirməklə dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətin əhəmiyyətli addımlarından biri oldu. Fərmana əsasən, Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, həmçinin hərbi senzuranın yaradılmasına dair 16 aprel 1992-ci il tarixli fərman və informasiya yayımına nəzarəti nəzərdə tutan 15 aprel 1993-cü il sərəncam qüvvədən düşdü. 1999-cu ilin sonunda qəbul edilən "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun isə mətbuatda demokratik prinsiplərin möhkəmlənməsinə mühüm töhfə verdi. Bu qanun ölkədə mətbuatın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılmasına, dövlət qeydiyyatının ləğvinə və yeni mətbuat orqanlarının yaradılması prosedurunun sadələşdirilməsinə şərait yaratdı. Ümummilli lider Heydər Əliyevin mətbuatın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər ardıcıl xarakter daşıyırdı. 2000-ci ilin martında imzaladığı sərəncamla "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiqləndi, Mətbuat və İnformasiya Nazirliyi ləğv edilərək onun yerində Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Bu addımlar Azərbaycanda müasir və azad mətbuat mühitinin formalaşmasına güclü təkan verdi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan mətbuatı öz inkişafında yeni bir mərhələyə qədəm qoydu. Bu dövr mətbuat azadlığının təmin olunması, media qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi və azad, peşəkar medianın formalaşdırılması ilə xarakterizə olunur. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən ardıcıl islahatlar milli mətbuatın beynəlxalq standartlara uyğun inkişafına, ölkədə sağlam informasiya mühitinin yaranmasına və cəmiyyətin maariflənməsində medianın rolunun daha da artmasına geniş imkan yaratdı. Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında KİV-lərin inkişafına dövlət dəstəyi Konsepsiyası" və 3 aprel 2009-cu ildə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması ölkədə azad medianın inkişafına, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə və jurnalistlərin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş mühüm addım oldu. 2010-cu ildə Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrılması mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verdi. Bu vəsait jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binalarının inşasına sərf edildi.

2021-ci ilin dekabrında qəbul olunan "Media haqqında" Azərbaycan Respublikasının Qanunu media sahəsində fəaliyyətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən etməklə yanaşı, kütləvi informasiyanın toplanması, hazırlanması, istehsalı, ötürülməsi və yayımının ümumi prinsiplərini dəqiq şəkildə təsbit etdi. Eyni zamanda, Prezidentin 12 yanvar 2021-ci il tarixli Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun bazasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" (MEDİA) yaradıldı. Agentlik çap və onlayn medianın inkişafı, media qurumlarının maliyyə müstəqilliyinin gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirir.

Prezident İlham Əliyevin milli mətbuata verdiyi yüksək dəyərin növbəti bariz nümunəsi bu il aprelin 25-də imzaladığı Sərəncamdır. Həmin Sərəncamda Azərbaycan milli mətbuatının 150 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması tapşırılıb. Sənnəddə deyilir: "... Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

**Musa BAĞIRLI,**
**"Respublika".**